# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 238/4** **18 dekabr 2012-ci il**

**“Azərbaycan Respublikasının Auditorlar Palatasında informasiya azadlığı ilə bağlı daxili icraat haqqında” Qaydalar barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Faliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının iş Planı”nın 1.1-ci bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası sədrinin “Auditorlar Palatasında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi haqqında” 2012-ci il 19 oktyabr tarixli 39 saylı əmri ilə müəyyən olunmuş şəxslər (Q.Bayramov, S.Gülməmmədov, N.Talıbov) tərəfindən hazırlanmış “Azərbaycan Respublikasının Auditorlar Palatasında informasiya azadlığı ilə bağlı daxili icraat haqqında” Qaydalarını müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasının Auditorlar Palatasında informasiya azadlığı ilə bağlı daxili icraat haqqında” Qaydalar təsdiq edilsin və 2013-cü il 01 yanvar tarixindən tətbiq olunsun (əlavə olunur).
2. Auditorlar Palatasında informasiya azadlığı üzrə müəyyən olunmuş məsul şəxslərə (Q.Bayramov, S.Gülməmmədov, N.Talıbov) və müvafiq struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, təsdiq edilmiş Qaydalardan irəli gələn vəzifələrin icrasını vaxtında və keyfiyyətlə təmin etsinlər.
3. Bu qərarın və “Azərbaycan Respublikasının Auditorlar Palatasında informasiya azadlığı ilə bağlı daxili icraat haqqında” Qaydaların Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**